**AZƏRBAYCAN RESPUBLIKASININ**
**AUDITORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№374/3** **28 fevral 2025-ci il**

**Azərbaycan Respublikası Auditorlar Palatasının Şurası yanında komitələrin və komissiyanın, Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin, Qadınlar Şurasının və Veteranlar Şurasının 2024-cü il üzrə fəaliyyətlərinin yekununa dair hesabatlarının təqdim edilməsi və 2025-ci il üzrə iş planlarının təsdiq edilməsi barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 12.21-ci “Auditorlar Palatasının Şurası yanında komissiya və komitələrin fəaliyyətinə dair hesabatın hazırlanıb təqdim edilməsi” bəndinin, Palata Şurasının “Auditorlar Palatasının Şurası yanında komitələrin və komissiyanın 2023-cü il üzrə hesabatları, 2024-cü il üzrə iş planlarının və Əsasnamələrinin təsdiq edilməsi barədə” 2024-cü il 21 fevral tarixli 363/1 nömrəli, “Azərbaycan Respublikası Auditorlar Palatası Qadınlar Şurasının 2024-cü il üzrə iş planının təsdiq edilməsi barədə” 2024-cü il 24 iyun tarixli 366/6 nömrəli, “Azərbaycan Respublikası Auditorlar Palatasının Veteranlar Şurasının yaradılması və təsdiq edilməsi barədə” 2022-ci il 19 oktyabr tarixli 349/4 nömrəli, “Azərbaycan Respublikası Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin yaradılması və tərkibinin təsdiq edilməsi barədə” 2024-cü il 25 noyabr tarixli 370/3 nömrəli qərarlarının icrasını təmin etmək məqsədilə 2024-cü il ərzində fəaliyyət göstərən Auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitə (N.Talıbov), Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə (E.Əliyev), Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə (B.Orucov), Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitə (F.Qarayev), Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə (İ.Süleyman), Auditin hüquqi təminatı üzrə komitə (Ə.Aslanov), Beynəlxalq Audit Standartları üzrə komitə (N.Abbaslı), Rəqəmsallaşma, innovasiyaların tətbiqi və yaşıl iqtisadiyyat üzrə komitə (A.Bayramov), Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitə (E.Qurbanov), Etika, mübahisələr, ictimai nəzarətlə əməkdaşlıq və intizam komissiyası (K.Hüseynov), Auditorlar Palatasının İctimai Nəzarət Komitəsi (C.Həsənov), Auditorlar Palatasının Qadınlar Şurası (L.Bayramova), Auditorlar Palatasının Veteranlar Şurası (Ç.Abbasov) tərəfindən hazırlanıb təqdim edilmiş 2024-cü il üzrə hesabatlarının və 2025-ci il üzrə iş planlarının layihələrini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən aşağıdakı komitələrin və komissiyanın, Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin, Qadınlar Şurasının və Veteranlar Şurasının 2024-cü il üzrə arayış və hesabatları nəzərə alınsın (arayış və hesabatlar əlavə olunur):

I. Auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitə;

II. Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə;

III. Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitə;

IV. Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə;

V. Auditin hüquqi təminatı üzrə komitə;

VI. Beynəlxalq Audit Standartları üzrə komitə;

VII. Rəqəmsallaşma, innovasiyaların tətbiqi və yaşıl iqtisadiyyat üzrə komitə;

VIII. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitə;

IX. Etika, mübahisələr, ictimai nəzarətlə əməkdaşlıq və intizam komissiyası.

X. Auditorlar Palatasının Qadınlar Şurası;

XI. Auditorlar Palatasının Veteranlar Şurası.

2. Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən aşağıdakı komitələrin və komissiyanın, Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin, Qadınlar Şurasının və Veteranlar Şurasının 2025-ci il üzrə iş planları təsdiq edilsin (iş planları əlavə olunur):

I. Auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitə;

II. Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitə;

III. Haqsız rəqabətə qarşı mübarizə üzrə komitə;

IV. Beynəlxalq əlaqələr və xarici təşkilatlarla iş üzrə komitə;

V. Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə;

VI. Auditin hüquqi təminatı üzrə komitə;

VII. Beynəlxalq Audit Standartları üzrə komitə;

VIII. Rəqəmsallaşma, innovasiyaların tətbiqi və yaşıl iqtisadiyyat üzrə komitə;

IX. Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə (ƏL/TMM) üzrə komitə;

X. Etika, mübahisələr, ictimai nəzarətlə əməkdaşlıq və intizam komissiyası.

XI. Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin;

XII. Auditorlar Palatasının Qadınlar Şurası;

XIII. Auditorlar Palatasının Veteranlar Şurası.

3. Palatanın Şurası yanında Auditor fəaliyyətinin metodoloji təminatı üzrə komitənin sədri Nəcəf Talıbovun, Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin sədri Elçin Əliyevin, Beynəlxalq əlaqələr və xarici təşkilatlara iş üzrə komitənin sədri Fəqan Qarayevin, Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitənin sədri İlham Süleymanın, Auditin hüquqi təminatı üzrə komitənin sədri Ənvər Aslanovun, Etika, mübahisələr, ictimai nəzarətlə əməkdaşlıq və intizam komissiyasının sədri Kamil Hüseynovun və Auditorlar Palatası Veteranlar Şurasının sədri Çingiz Abbasovun 2024-cü il üzrə fəaliyyətləri müsbət qiymətləndirilsin və onlara təşəkkür elan edilsin.

4. Auditorlar Palatasının Şurası yanında komitələrin və komissiyanın, Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin, Qadınlar Şurasının, Veteranlar Şurasının 2024-cü il üzrə hesabatları və 2025-ci il üzrə iş planlarını yüksək səviyyədə təhlil edib arayışlar hazırladığına görə Aparatın rəhbəri Qəşəm Bayramovun əməyi fərqləndirilsin.

5. Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələrin və komissiyanın, Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin, Qadınlar Şurasının və Veteranlar Şurasının rəhbərlərinə tapşırılsın ki, 2026-cı il üzrə iş planlarını 2025-ci ilin dekabr ayında təqdim etsinlər və Əsasnamələrindən irəli gələn vəzifələrin və iş planlarında nəzərdə tutulmuş tədbirlərin icrasını vaxtında və keyfiyyətlə təmin etsinlər, həmçinin fəaliyyətləri barədə illik hesabatı hazırlayıb 2026-cı ilin yanvar ayının sonunadək Auditorlar Palatasına təqdim etsinlər.

6. Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələrin və komissiyanın, Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin, Qadınlar Şurasının və Veteranlar Şurasının rəhbərlərinə tapşırılsın ki, Əsasnamələrinə uyğun olaraq kollegial qaydada rübdə və ya yarımildə bir dəfə iclasların keçirilməsini və fəaliyyətləri barədə hesabatın hazırlanıb təqdim olunmasını təmin etsinlər.

7. Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin, Rəqəmsallaşma, innovasiyaların tətbiqi və yaşıl iqtisadiyyat üzrə komitənin, Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin, Auditorlar Palatasının Qadınlar Şurasının və Veteranlar Şurasının tərkibində aşağıdakı dəyişikliklər edilsin:

7.1. Keyfiyyətə nəzarət və keyfiyyətin idarə edilməsi üzrə komitənin üzvü Ziya Mikayılov işdən azad olunduğuna görə komitənin tərkibindən çıxarılsın və onun əvəzinə "Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi." şirkətinin Azərbaycan Respublikasındakı filialının audit üzrə meneceri Elşad Abdurahmanlı daxil edilsin;

7.2. Rəqəmsallaşma, innovasiyaların tətbiqi və yaşıl iqtisadiyyat üzrə komitənin tərkibindən auditor fəaliyyətini dayandırdıqlarına görə sədr müavini Rəna Qəfərova, üzvlər Əşrəf Hüseynov və Məhəmmədəli Bəşirli çıxarılsın, onların əvəzinə sədr müavini "SFA ORQANİZATİON GROUP" MMC-nin direktor-auditoru Mətanət İsmayılova, üzvlər – sərbəst auditor Emil Qəmbərov, "BERC Audit" MMC-nin direktor-auditoru Elnur Rəsulzadə daxil edilsin;

7.3. Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin tərkibindən hərbi xidmətdə olması ilə əlaqədar komitənin sədri Qoşqar Əhmədov çıxarılsın, həmin komitənin üzvü sərbəst auditor Vidadi Talıbov sədr təyin edilsin və "Bakı Hesabat Mərkəzi" MMC-nin direktor-auditoru Mehdi Babayev komitənin tərkibinə üzv kimi daxil edilsin;

7.4. Auditorlar Palatasının Qadınlar Şurasının tərkibindən Şuranın üzvü sərbəst auditor Rəna Qəfərova çıxarılsın və onun əvəzinə "SFA ORGANİZATİON GROUP" MMC-nin direktor-auditoru Mətanət İsmayılova daxil edilsin;

7.5. Auditorlar Palatasının Veteranlar Şurasının tərkibindən Novruz Pənahov vəfat etdiyinə görə çıxarılsın və onun əvəzinə "PROFESSİONAL AUDİTOR XİDMƏTLƏRİ" MMC-nin auditoru Aftandil Əliyev daxil edilsin.

8. Auditorlar Palatasının struktur bölmələrinin rəhbərlərinə tapşırılsın ki, Auditorlar Palatasının Şurası yanında fəaliyyət göstərən komitələrin və komissiyanın, Auditorlar Palatasının İçtimai nəzarət komitəsinin, Qadınlar Şurasının və Veteranlar Şurasının 2025-ci il üzrə iş planlarında nəzərdə tutulmuş işlərin icrasında onlara dəstək göstərsinlər.

9. Audit sistemində icra intizamı və daxili nəzarət şöbəsinin müdiri Zaur Almazova tapşırılsın ki, bu qərarın 7-ci bəndində olan dəyişikliklərin Palatanın internet səhifəsində aidiyyəti üzrə yerləşdirilməsini təmin etsin.

10. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, üç həftə müddətində bu qərarın, Palatanın Şurası yanında komitələrin və komissiyanın, Auditorlar Palatasının İctimai Nəzarət Komitəsinin, Qadınlar Şurasının və Veteranlar Şurasının 2025-ci il üzrə iş planlarının mətnlərinin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**